

# Xatirəyə çevrilən melodiyalar

## Emin Sabitoğlu duyğulara nəfəs verən bəstəkar idi...

*Yeganə BAYRAMOVA*

Azərbaycan musiqi mədəniyyətinin parlaq simalarından biri olan Emin Sabitoğlu ömrünü musiqiyə, melodiyanın insan qəlbinə yol tapan işığına həsr etmiş sənətkarlardandır. Onun bəstəkarı olduğu mahnılar bütöv bir nəslin hisslərini ifadə edib, həm də gələcək nəsillərə duyğu, sevgi və düşüncə mirası kimi qalıb. Sabitoğlunun musiqisi xalqın gündəlik həyatından doğan, səmimi duyğuların sözə çevrilmədən birbaşa melodiyada danışdığı bir ünsiyyət formasıdır. O melodiyalar ki, insan ürəyinin ən dərin qatlarına toxunur, bəzən nəğmə kimi, bəzən düşüncə kimi, bəzən də xatirə kimi yaşayır.

Bir payız axşamı görkəmli dramaturq Sabit Rəhmanın ailəsində dünyaya göz açan Emin sonralar məşhur mahnılarından birində söylədiyi kimi, "haradan gəlib hayana gedəcəyini" çox gözəl bilirdi. Belə olmasaydı, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdindəki orta musiqi məktəbində (indiki Bülbül adına məktəbdə) təhsil almazdı, 1954-cü ildə Konservatoriyada, Qara Qarayevin sinfinə daxil olmazdı, 1957-1961-ci illərdə təhsilini P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında davam etdirməzdi.

Sonralar o, "Azərbaycanfilm" kinostudiyasında musiqi redaktoru vəzifəsində çalışıb. Sonrakı illərdə Dövlət Filarmoniyasında bədii rəhbər, Ü.Hacıbəyli adına Dövlət Konservatoriyasında (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) müəllim işləyib.

Ötən yüzillikdə Azərbaycan musiqisi tarixində layiqli iz qoyub getmiş Emin Sabit oğlu Mahmudov milli bəstəkarlıq məktəbinin layiqli nümayəndələrindən biridir. Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli bəstəkarın kino və tamaşalarda səslənən musiqiləri dillər əzbəridir, ayrı-ayrı müğənnilərin repertuarında geniş yer tutur. Onun filmlərə yazdığı musiqilər yüksək mədəniyyət, zəngin dünyagörüşü və yaradıcı intellektin məhsuludur. Elə bunun nəticəsində də bədii əsərlərin təcəssümü olan zamanın ruhunu çox dəqiqliklə hiss etdirir, hadisələrin məğzini açır. Emin Sabitoğlu musiqisi emosional ekran poeziyası kimi baxımlıdır. Bəstəkarın kino musiqisi tamaşaçını filmlərdəki hadisələrə daha çox ürəkdən təmas etməyə, daxilən obrazlarla ünsiyyət qurmağa təkan verir, hətta film bitdikdən sonra da tamaşaçını özünün emosional təsirində saxlayır. Bəstəkar tanınmış rejissorlardan - Həsən Seyidbəyli, Şamil Mahmudbəyov, Arif Babayev, Tofiq Tağızadə, Rasim Ocaqov və Vaqif Mustafayevlə əməkdaşlıq edib, onların çəkdikləri filmlərə yaddaqalan musiqi bəstələyib.

Musiqinin müxtəlif janrlarında bir çox dəyərli əsərlərin müəllifi olan Emin Sabitoğlu bir simfoniya, üç simfonik poema, üç kantata, simli kvartet, skripka və fortepiano üçün poema yazıb. Lakin bir neçə musiqi janrı onun yaradıcılığının əsasını, müəyyənedici hissəsini təşkil edirdi.

O, 600-dən artıq mahnı, doqquz musiqili komediya, 40-a yaxın filmə musiqi bəstələyib. "Dərələr", "Bakı, sabahın xeyir", "Uzaq yaşıl ada", "Dağlar", "İnsaf da yaxşı şeydir" mahnıları çoxsaylı əsərlərindən bəziləridir.

Tamaşalara yazdığı musiqilər isə o qədər çoxdur ki, sayını heç bəstəkarın özü də bilmirdi. Paytaxt teatrları ilə yanaşı, Sumqayıt, Gəncə, Lənkəran, Mingəçevir, Naxçıvan teatrlarının tamaşalarına musiqi bəstələyib.

Zaman hər şeyi dəyişir, amma Sabitoğlu melodiyaları dəyişmir. Onlar elə yazılıb ki, hər dövrdə gəncləşir, hər nəsildə yenidən doğulur. Bu, onun sənətə və xalqa olan sevgisinin möcüzəsidir.

Bu gün görkəmli bəstəkarın vəfatından 25 il ötür. O, 2000-ci il noyabrın 18-də Bakıda vəfat edib. 5 avqust 2017-ci ildə Prezident İlham Əliyev Emin Sabitoğlunun 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. 2022-ci ildə bəstəkarın 85 illik yubileyi Vyanada qeyd olunub.

Yeni Azərbaycan.-2025.- 18 noyabr, №209.- S.8.